

# QƏTİBƏNİN GÖZ YAŞI

**(hekayə)**

***Allahverdi Eminov***

Bu xanım Məhəmməd Səidin obrazı deyil a! Mənim qəhrəmanımdır: iş yerimi dəyişməsəydim, belə xanıma harada rast gələrdim. Elə bilirsiz yazarın Allahı yoxdu? Var, bir səbəblə yetirir.

Qətibənin eşq - filən macəraları yoxdu. Əzəldən bir-ikisiylə olub və nöqtə qoyulub. Hər halda evlilik həyatını yaşayıb. Sonra başı işə qarışıb, sözdən-minnətdən sonra uşaqlara dərs deyib, uşaqların ”dərsini” verib. Sonra bu ”dərsi” müəllim yoldaşlarının yaxasından keçirib: kollektivdə bir haray-həşir salıb - tamaşasına direktor tamaşa eləyəndən sonra şələsini çiyninə yükləyib yola salıb. Səssiz-səmirsiz keçməyib ”vida” mərasimi.

- Sənə altı ayda yaltaqlanıram, dilimi çıxarıram. Pedaqoji şurada titrək səsimlə səni göyə qaldırıram. Məktəbdə kiçicik ”çepe”ni şişirdirəm ki, rəqiblərini sıradan çıxarasan. İdman müəlliminin idman şalvarını oğurlatdırdım, izi-tozu görünmədi. Uşaqlar gülüşdülər. Tədris hissə müdirinin ”dinləmə dəftəri”ni gedər-gəlməzə saldım. Özü qayıtdı, dəftəri qayıtmadı. Cavan müəllimdən şübhələnirdim - o məsələ - gözünün hara dikdiyini sezmişdim. Panika yaydım ki, filan müəlliməylə xosunlaşır... Sən bunlara fikir vermədin. İndi dirəmisən məni divara ki, üzüyola rədd ol kollektivdən. Mən işsiz qalmaram. Mən burdan da yüksək yerə ayaq basaram.

Direktor əli çənəsində Qətibəni dinləyirdi. Qətibə əlini yelləyir, sarışın saplaqlı saçını sığallayır, nazik sifətinə sürtürdü. Baxışlarını Cavan müəllimdən çəkmirdi - mənasını anlamırdı. Qətibə ağlamağı ürəyindən keçirdi, ürəyi daşlaşmışdı - döyünmürdü, müəmmaydı. Axı, bu göz yaşı onun karına gəlmişdi. Hələlik bu, ikinciydi, ağlamağı bacarmırdı. Birincidə ərindən ayrılmaq istəmirdi, tanınmış simaydı. Ekrana mütəmadi çıxırdı, kölgəsi vardı:

- Məni bağışla, - pıçıldamışdı. - Qarşında ağlamaq istəmirəm. Buna görə, barı, mənə güzəşt elə.

- Ağlasan bağışlardım, - istehzayla güldü və əlini qapıya sarı uzatdı. - İzin-tozun görünməsin.

İkinci direktorun kabinetində baş verdi

- Heyf, bu qədər yaltaqlandım, sənə bəs nə lazımmış, - astadan dilləndi.

- Göz yazım?!

- Ağlasan bağışlaram, - istehza ilə səsini boğdu, Qətibənin gözlərində müəmmalı rəngi qarışırdı. - Axı, onun gözləri gömgöydü, şor dəniz suyu kimi bulanırdı. İnstituta zəng gəldi. Yeni direktorun telefonu səsləndi, dəstəyi qaldırdı.

- Yanınıza bir qadın göndərəcəyəm. Ondan muğayat olun! Bəzi xasiyyətlərinə diqqət yetirin! O, sizə gərəkli kadr olacaq!

- Baş üstə! Mən bu cür kadrların aşiqiyəm. Etibarımı qazansa...

- Dəstəyi yerinə qoydu, bir də qovzadı və ustufca ”otuzdurdu”.

Qısa vaxtda Qətibəyə hələlik aşağı vəzifə tapşırıldı: - İnstitutda adamların xasiyyəti bambaşqadır. Orta məktəb deyil. Sən çalış mənim əleyhimə düzüb-qoş, danışdır onları. Ruhlanıb ürəklərini boşaldacaqlar.

Yeni direktor - ”yeni” deyəndə beşinci ildir çalışır - iclasın birində ona söz verdi (mən də orada idim):

- Sizin qarşınızda söz tapmaqda acizəm. Siz bizim kollektiv üçün tapıntısız. Sağ olsun nazirimiz, yuxarılar sizin qabiliyyətinizi gördülər, qiymətləndirdilər. Sizi daha yuxarı perspektivlər gözləyir. - Sonuncu cümləni qurtarcaq Qətibənin arıq çiyinləri titrədi. Sarışın nazik hörükləri qarğıdalı saçaqları kimi yelləndi. Qətibə hörüyün ucundan yapışdı, solmuş dodaqlarına apardı. İştirakçılar, o cümlədən, mən ona baxanda bədənim ürpəşdi. Qətibənin göz yaşı süzülürdü, göy gözləri balacalaşırdı:

- Mən xoşbəxtəm, Sizin institutda çalışıram. - Səsi xırıldadı.

Direktorun xırda gözləri əksinə, böyüyürdü. Belə tərifli cümlələri eşitməmişdi: ”- Sağ olsun bu qadını sərəncamıma göndərən. Nazir adam tanıyandır! Özü də ”xəfiyyə metodu” ilə işləyir”. - Ürəyindən keçirdisə titrək səslə: - Əyləşin, - deyə bildi. Qorxdu, özü də Qətibəyə qoşular.

Qətibə üçüncü iclasda fəğan elədi: - Sizin rəhbərliyinizlə neçə-neçə biznes-alim yetişmişdir. Günbəgün bunların sayı göbələk kimi artmaqdadır. - Bu sözləri ağzından çıxarcaq, ”səhvini” düzəltdi. - Yox, ”göbələk” demək istəmirdim. Siz məhsullu alim yetişdirirsiz! Mən də mövzu götürmək istəyirəm. O gün olacaqmı?

Qətibə başını aşağı saldı və qaldırdı:

- Göz yaşım sevincdəndir, yoldaşlar. Gəlin, hamımız direktorumuzu alqışlayaq ki, elmi kadrlara xüsusi qayğı göstərir. - Səsi xırıldadı.

Qətibə bu təntənəli tərifdən sonra nüfuzlu elmi vəzifəyə sahiblik elədi. Və az sonra başıaşağı, ustad bir pedaqoq institutla xudahafizləşdi.

İkinci namizəd hazırlanırdı. Məlum oldu ki, - o işə gəlir, cari qayğıları üçün ora-bura gedir, ailəyə çörəkpulu qazanır.

Qətibə aktlaşdırdı və hörmət əlaməti razılıq ərizəsi alındı. Direktor Qətibəyə bildirdi ki, institutun çayxanasında mənim əleyhimə söz- söhbətlər gəzir. Narazılıqlar artır, ora-bura yazarlar.

- Aydındır məsələ. Mən ölmüşəm məgər, mənə yedirtdiyin çörəyin haram olar! - Qətibə kövrəldi, direktorun düyünlənmiş sifətində tər tumurcuqlanmışdı. Zəif tükləri titrəyirdi. - Mən qarşınızda acizəm. Mən hiss etmişdim ki, çayxana demaqoqlar yığıncağıdır. Arabir otururam. Narahatçılığa əsas görmürəm.

Qətibə kövrəlmişdi.

Qətibənin əzəli rəqibi vardı, sonuncu iclasda göz yaşını axıdanda o Adam qəzəblənmişdi, özünü saxlaya bilməmişdi:

- Sən Məmməd Səidin Qətibəsindən bir çömçə artıqsan. Mahirsən bəzi məsələlərdə.

İldırım vurmuşdu Qətibəni. Və ürəyində hökmünü vermişdi: ”Sənin donunu biçərəm. Bağışla, ”şalvar” demək istəyirdim. Ağlın gələr yerinə. Bir göy diplomun var, elə bilirsən elmin zirvəsindəsən. Sənin, bəzilərinin acığına ondan birini alaram. Pulnan yazdırılmır məgər? Rəhbəri də çlenkor seçəcəyəm!

İclasların birində direktor adəti naminə ortaya sözünü dığırlatdı, əlini sinəsinə apardı:

- Atılan daşdan xəbərdaram, - dedi. - Çayxanaya yığışıb dalımca söz gillədirsiz. Sonra da ruhlanıb yüz-yüz gillədirsiz. Məni heç kəs gillədə bilməz. Mən o adamları gillədərəm!

Yenə o Adam özünü saxlayammadı, yerindən:

- Hörmətli direktor, - dilləndi. - Şərabı gillədirlər, işçilərin məgər araqdı-filandı gillədirsən? Sözünün məsuliyyətini anlayırsan?

Bu məqamda Qətibə yerindən qalxdı. Sağ əlini havada oynatdı, boğuq səslə dedi:

- Sənsən o adamlardan biri! O gün möhtərəm direktorun əleyhinə danışmırdın? Sizdə insaf-zad yoxdur? Allah onu başımızın üstündən əskik eləməsin! Mən, yoldaş direktor, dözə bilmirəm, ürəyim çatlayır.

Əlini sinəsinə apardı, sarışın nazik hörükləri köhnə yerindəydi. Əli boş çıxdı və stolun üstünə düşdü-qırmaqdan canını qurtaran balıq kimi: - İnsafsızlar! Bunları nə üçün saxlamısız? Nə üçün? - Hıçqırdı, qadınlardan bəzisi qorxuya düşdü. Bunların arasında bir ikicanlı da vardı.

Qətibənin ürəyi sıxılmışdı. Deyəsən direktorun da ürəyi yerindən oynamışdı. Dərhal ”Sirab”dan stəkana süzüb qarşısına qoyuldu, o da suyu gillətdi. Toxdadı. Qətibə isə toxdamamışdı. Həmin Adam əlini qaldırıb söz aldı ki, tribunaya qalxsın. Direktor diksindi sanki, özünü itirdi və əliylə işarə elədi ki, buyursun.

- Əziz iştirakçılar. - Sözünə belə başladı. - Mən səslərin azarkeşiyəm. Qarabağlı olduğum üçündür bəlkə. - Kostyumunun sağ cibindən astaca diktofonu çıxarıb qarşısına qoydu və dedi ki, səslər yazılıbdır, eşidən kimi tanıyacaqsız.

Gülüş səsi dalğalandı. - Rəhmətlik keçmiş direktorun səsidir. Eşidin şərəfinə deyilənləri: ”İslam müəllim, sizin qarşınızda söz tapmaqda acizəm. Siz bizim kollektiv üçün tapıntısız. Sağ olsun nazirimiz sizin qabiliyyətinizi gördü, qiymətləndirdi. Sizi daha yüksək perspektiv gözləyir...”

Kiçik zalda səslər bir-birinə qarışdısa, o Adam tövrünü pozmadı, dodaqlarında təbəssüm cavanlaşdı:

- Sakit olun, - əlini qaldırdı. - İstidir, gözlükləri qapıyın, pəncərələri açın, qoyun hava çıxsın, adam darıxır. - Adam diktofonun düyməsini yenidən ”oyatdı”, sanki yatmış taxtabiti hərəkətə gəldi. - Eşidin bu səsi. ”Sizin rəhbərliyinizlə, Zamin müəllim, cənab direktor, neçə-neçə alim yetişmişdir. Günbəgün bunların sayı göbələk kimi artmaqdadır. Yox, ”göbələk” demək istəmirdim. Siz məhsullu alim yetişdirirsiz. Mən də mövzu götürmək istəyirəm...”

Səs qırıldı, xırıltı boğuldu: ”Göz yaşım sevincdəndir. Gəlin, direktorumuzu hamımız alqışlayaq...” O Adam düyməni basdı - taxtabiti kimi düymənin ”canı” çıxdı.

Bu dəm direktor Qətibənin yumağa dönmüş sifətinə baxdı və başını aşağı saldı. İstəyirdi o, ayağa dursun və həyecanlı ”nitq” irad etsin. Bu istəyin tərkində direktorun əl boyda, sonuncu buraxılmış mobil telefonu yanıb söndü. Səs kəsilirdi, canlanırdı, sancırdı, - ona belə təsir göstərirdi.

Direktor çiyinləri üstdə üzü divara qanrıldı ki, səs eşidilməsin. ”Yerinizdə niyə oturmursuz. Bir kimsə cavab da vermir. İnstitutda gəzintiylə məşğulsuz?” - Pauza. - ”Nazirin əmriylə...” - Pauza. ”Siz təcili Nazirliyə gəlin”. - Müşavirin o səsi qulaqlarını sancdı.

O Adam asta-asta tribunadan enib, öz yerinə qayıdırdı.

Qətibə fəhmən nəyisə sezmişdi. Son ayaqda ayağa qalxdı, özünü topladı, boğazı tıxandı, susdu. Gömgöy gözlərini sıxdı, bozarmış yanaqlarında gilələndi. Yerində qurcalandı:

- Sizlər belə alicənab direktorun qədrini sonra biləcəksiz. Hələ siz uşaqsız. Və direktora tərəf addımladı. - Siz hələ bu kollektivə gərəksiz. - Gəlib direktorun arxasında dimdik dayandı.

Mobildə baya səs əvəzlənmişdi.

Direktor duydu ki, boynuna isti nəsə axır, sağ əlini uzatdı, barmaqları islandı. Qanrıldı, Qətibənin göy gözləri yaş içərisində sınırdı. Və o, özündə taqət tapıb Qətibənin qolunu özündən araladı:

- Ürəyini sıxma, - dedi. - O gələn adamın da səndən xoşu gələcək...

**02.05.14.**
**Bakı**